# Ulu öndər Heydər Əliyevin 1969-cu ilin avqust plenumunda nitqi və bu günümüz

1969-cu ili avqustunda cəmi iki ay öncə Azərbaycan KP MK-nın birinci katibi seçilmiş (bu vəzifə respublikada ən ali siyasi vəzifə idi) ulu öndər Heydər Əliyev cəmiyyətin bütün təbəqələri üzrə nümayəndələrinin iştirak etdiyi plenumda öz tarixi nitqini söylədi. O vaxtdan 46 il keçsə də ümummilli liderin həmin nitqi cəmiyyət üçün bu gün də aktualdır. Ulu öndərin həm dilçilik, həm də siyasi baxımdan zəngin olan bu nitqi uzun illər insanların yaddaşında qaldı. Yüksək şəxsiyyətin həmin nitqində qaldırılan məsələlər Azərbaycanın gələcək inkişafının proqramı idi. Bu günlərdə həm o vaxt ulu öndərin məşhur avqust plenumunda söylədiyi nitqinə, həm də bu plenumla əlaqədar yazılmış yazılara nəzər yetirərkən ulu öndərin nə qədər fenomen şəxs olduğu, uzaqgörənliyi, cəsarəti, qətiyyəti bir daha gözlərim önündə canlandı.

Ulu öndər əmək fəaliyyətinə başladığı gənc yaşlarından Azərbycan Respublikasının birinci şəxsi vəzifəsinə seçilənədək başqa sahədə, mühüm güc strukturu olan dövlət təhlükəsizliyi orqanlarında işləsə də onun respublika həyatının bütün sahələrinə dərindən bələd olması nəinki həmin yığıncaqda iştirak edənləri, həm də ulu öndərin nitqi ilə kütləvi informasiya vasitələrində tanış olanları, bir sözlə bütün respublika əhalisini heyran qoymuşdu.

Heydər Əliyev nitqində respublika iqtisadiyyatında baş verənləri müqayisəli şəkildə təhlil edir, ictimai-siyasi vəziyyəti dəyərləndİrir, nöqsanları aradan qaldırmaq üçün konkret yollar göstərirdi.

Ulu öndər bütün sahələrdə olan nöqsanların aradan qaldırması yollarını kadrların məsuliyyətinin artırılmasında görürdü. Nöqsanların səbəblərini iizah edən ulu öndər qeyd edirdi: «Bu hər şeydən əvvəl, etibar edilən iş sahəsi üçün bəzi rəhbərlərin məsuliyyət hissini itirməsindən ibarətdir. Məhz buna görə istehsal prosesinin təşkilində nöqsanlar meydana çıxır». Dahi rəhbər hələ o vaxt bəzi rəhbər işçilərin ad-san xatirinə öz işlərini kənara qoyaraq elmi dərəcə almaq üçün dissertasiya müdafiə etmələrini də kəskin tənqid edirdi: «Onlar özlərinə tapşırılmış işin zərərinə olaraq dissertasiya yazır, bəzən bunun üçün hətta öz vəzifələrinin imkanlarından istifadə edirlər». Ulu öndər məsələni konkret qoyurdu: Elm adamı elmlə, rəhbər işçi ona etimad edilmiş vəzifə ilə məşğul olmalıdır.

Sovet dövründə yaşayanlara məlumdur ki, həmin vaxt cəmiyyətdə baş verən mənfi halları qabartmaq, ictimailəşdirmək mümkün deyildi. Həmin cəmiyyət ancaq müsbət çalarla təbliğ olunmalı idi. Ulu öndər Heydər Əliyev sovet cəmiyyətindəki nöqsanları geniş auditoriya qarşısında çəkinmədən deyən və onlara qarşı kəskin mübarizə aparan ilk lider kimi tarixə düşdü: Ulu öndər plenumda ürək yanğısı ilə qeyd etmişdi. «Azərbaycanda gənclər arasında cinayətkarlığın artması, əxlaq pozgunluğunun olması, sərxoşluğa, narkomaniyaya meylin çoxalması haqqında məlumatları ürək ağrısı ilə qarşılayırıq. Gənclər bizim gələcəyimizdir». Biz bu sözlərdə vətəninin, xalqının gələcəyini hər şeydən üstün tutan bir rəhbəri görürük. Göründüyü kimi uzaqgörən siyasətçinin gənclərlə əlaqədar, yəni 46 il bundan öncə səsləndirdiyi fikirlər bu gün də cəmiyyəti narahat edən məsələdir. Bu tip çıxışların hələ sovetlər dönəmində, 1969-cu ildə səslənməsi bir daha Heydər Əliyevin dahi şəxsiyyət olmasını sübut edir. Ulu öndər cəmiyyətdə, xüsusən gənc nəsil arasında baş verən neqativ halları qeyd etməklə yanaşı onların aradan qaldırılması yollarını da çox dəqiqliklə göstərir: «Xuliqanlıq, sərxoşluq və cəmiyyətə zidd olan digər hallara qarşı mübarizə aparmaq üçün müxtəlif vasitə və metodları sıx əlaqələndirmək lazımdır. Bu ailə və məktəbdən başlayaraq geniş tərbiyə sistemindən, ictimai və inzibati təsir tədbirlərini bacarıqla əlaqələndirməkdən, istirahəti maraqlı təşkil etməkdən və bir çox başqa tədbirlərdən ibarətdir».

Yaxşı xatırlayıram: ulu öndərin bu nitqindən sonra mədəniyyət evləri və klublarda, idman cəmiyyəti və təşkilatlarında həyat canlandı, yeniyetmə və gənclərin böyük qismi bədii özfəaliyyət kollektivlərinə, idmanın müxtəlif növlərinə daha geniş cəlb olundular. Mədəniyyət və idman obyektlərinin, qurğularının sayı və keyfiyyəti görünməmiş vüsətlə artdı. Hər bir yaşayış məntəqələrində mədəniyyət evi və ya klub, kitabxana, sadə idman meydançaları yaradıldı. Nəticədə qısa müddətdə respublikkada gənclər və yeniyetmələr arasında neqativ halların sayı dəfələrlə azaldıldı.

Heydər Əliyev bütün fəaliyyəti boyu cəmiyyətdə şəxsiyyətin rolu məsələsinə böyük önəm vermişdir. Elə 1969-cu ilin avqustunda keçirilən plenumda da ulu öndər bu məsələyə dönə-dönə toxunmuş, fəaliyyətinin sonrakı dönəmlərində də bu amilə xüsusi diqqət yetirmişdir. Ulu öndər deyirdi: «Kadrlara səmimi və qayğıkeş münasibətlə yanaşı mövqeyindən və keçmiş xidmətlərindən asılı olmayaraq onların gördükləri işin nəticələrinə tələbkarlıqla yanaşmaq lazımdıр».

Ulu öndərin XX əsrin 70—80-ci illərində böyük tələbkarlıqla tərbiyə edib yetişdirdiyi kadrlar 1993-cü ildə bu böyük siyasətçi yenidən müstəqil Azərbaycanda hakimiyyətə gələrkən onun həyata keçirdiyi islahatların aparıcı güvvəsinə çevrildilər.

**Qüdrət SƏMƏDOV.**

# Qəbələdə Olimpiya atıcılıq növləri üzrə Dünya Kubokunun final yarışları barədə qonaqların təəssüratları

***Çinli məşqçi Uanq Sifi:*** Ötən il də Qəbələdə dünyanın tanınmış atıcılarının Beynəlxalq qran-pri yarışlarının iştirakçısı olmuşam. Bu ilki yarışlarda isə Qəbələyə ikinci gəlişimdir. Burada idmançılar və qonaqlar üçün yaradılan şərait cox gözəldir. İnsanlarınız da çox mehribandır, qonaqpərvərdir. Təbiətin belə gözəl mənzərəli guşəsində yaradılan bu atıcılıq poliqonu dünya standartlarına uyğundur. Çində də bu cür komplekslər var.

Dünya kuboku uğrunda keçirilən bu yarışların təşkilatçıldığı səviyyəsini isə xüsusi olaraq vurğulamaq istəyirəm. Burada hər şey möhtəşəmdir. Yüksək səviyyəli idman komplekslərində keçirilən yarışlarda Çin idmançılarının iştirakı da yüksəkdir. Demək olar ki, Çin idmançıları hər gün medal qazanır. Məni və komandamızın üzvlərini hər gün təbrik edirlər. Hazırda komanda hesabı ilə idmançılarımız yarış cədvəlində birinci yerdədir. Biz böyük sevinc içərisindəyik. Çalışacağıq ki, sona qədər birinciliyi əldən verməyək».

Vanq Sifi qeyd etdi ki, Qəbələdə olduğumuz müddətdə bir neçə görməli yerlərlə də tanış olmuşuq. Nohur göldə və «Yeddi gözəl» şəlaləsində istirahət etdik. Bu yerlər çox möhtəşəmdir və insan burada rahatlıq tapır. Gördüyümüz gözəllikləri sözlə ifadə etmək çətindir.

* * *

***İranlı baş məşqçi Lasio Şucsak:*** Bakıdakı və Qəbələdəki atıcılıq mərkəzləri çox müasir və yüksək səviyyədədir. Bu mərkəzlərdə Olimpiya Oyunlarının atıcılıq yarışlarını keçirmək üçün hər cür şərait var. İran idmançıları Qəbələdki müasir atıcılıq mərkəzində dünyanın ən güclüləri ilə mübarizə aparırlar.

Yarışın 8-ci günü İran qadınlarından ibarət milli komandanın baş məşqçisi deyib: «Yarışa yaxşı hazırlaşmışıq. Çox çalışırıq və bu zəhmətin qarşılığı kimi iki idmançımız pnevmatik tapançadan 10 metr məsafəyə atəşacma yarışında medal qazandı». Məşqci sözünə davam edərək qeyd etmişdir ki, Dünya kuboku üzrə yarışlar təşukilatı baxımdan əlbəttə çox böyük zəhmət tələb edir. Ancaq görürük ki, Qəbələdə təşkilatcılar bu işin öhdəsindən gələ bilirlər. Azərbaycan xalqının qonaqpərvərliyini də unutmaq olmaz. Biz burada yüksək qonaqpərvərliyin şahidi olduq.

Yarışların sonuna iki gün qalmış məşqiçi deyib: Artıq hədəfimizə çatmışıq. İki medalımız var. Bir qızıl, bir gümüş medala yiyələnmişik. İdmançılarımız güclüdürlər, çox çalışırıq. Ancaq hər kəsə uğurlar arzulayıram.

# «Milli -mənəvi dəyərlərimiz və müasir çağırışlar» mövzusunda tədbir

Avqustun 17-də turizm və otelçilik üzrə tədris mərkəzində Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsinin dəstəyi ilə «Yeni üfüq» Mənəvi İrsin Təbliği İctimai Birliyinini «Milli-mənəvi dəyərldərimiz və müasir çağırışlar» mövzusunda tədbiri keçirildi.

Yığıncağı giriş sözü ilə Dini Qurumlaprla İş Üzrə Dövlət Komitəsinin nümayəndəsi Elvin Qarayev açdı.

Tədbirdə «Yeni üfüq» ictimai birliyinin sədri Sevinc Əzimbəylinin və şərqşünas Seyid Camal Əzimbəylinin milli-mənəvi dəyərlərimizin qorunması, milli kimliyin dərki ilə əlaqədar söhbətləri, habelə Qəbələ şəhər məscidinin imam köməkçisi Saleh Şirinovun çıxışı maraqla qarşılandı.

Yığıncaqda dini icmaların rəhbərləri və ziyalılar iştirak edirdi.

Tədbiri Qəbələ Rayon İcra Hakimiyyətinin nümayəndəsi Zahid Əfəndiyev yekundaşdıraraq, milli-mənəvi dəyərlərimizin qorunmasının vacibliyindən danışdı və tədbirin təşkilatçılarına təşəkürünü bildirdi.

**«Qəbələ».**